**“Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq, “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Torpaq Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I); 2024, № 3, maddə 250, № 7, maddə 770) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 32-ci maddənin 3-cü hissəsinə “icarəsinə” sözündən sonra “, dövlət orqanlarının (qurumlarının) istifadəsinə” sözləri əlavə edilsin;

1.2. 46-cı maddənin 1-ci hissəsinin səkkizinci – on birinci abzasları müvafiq olaraq doqquzuncu – on ikinci abzaslar hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

“Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan süni torpaq sahələri;”;

1.3. 56-cı maddəyə aşağıdakı məzmunda 12-ci hissə əlavə edilsin:

“12. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin istifadəyə və icarəyə verilməsinin xüsusiyyətləri “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir.”;

1.4. 66-cı maddəyə aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

“2-1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələri üzərində hüquqların yaranması ilə bağlı münasibətlər “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.”.

**Maddə 2.** “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3,

maddə 154 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 66-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci maddənin birinci hissəsinin beşinci – səkkizinci abzasları müvafiq olaraq altıncı – doqquzuncu abzaslar hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

“Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan süni torpaq sahələri;”;

2.2. 10-cu maddə üzrə:

2.2.1. ikinci hissəyə “torpaqlar” sözündən sonra “və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan süni torpaq sahələri” sözləri əlavə edilsin;

2.2.2. aşağıdakı məzmunda onuncu hissə əlavə edilsin:

“Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin icarəyə verilməsi “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.”.

**Maddə 3.** “Torpaq bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 390 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 8-ci maddəyə aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin:

“Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin istifadəyə və icarəyə verilməsi “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.”;

3.2. 18-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələri üzərində hüquqların yaranması əsasları “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 dekabr 2024-cü il
№ 88-VIIQD